# BOLŞEVİZMƏ SƏDAQƏTLİ KOMMUNİSTİN ACI TALEYİ



*Cəlal QASIMOV,*
*filologiya elmləri doktoru,*
*professor*

*(Əvvəli ötən sayımızda)*

28 aprel 1937-ci ildə onu dördüncü dəfə dindirirlər və bu dəfə onu qrammofon valı, eyni zamanda əksinqilabi kitab saxlamaqda ittiham edirlər.

**Sual:** Axtarış zamanı sizin evinizdən qadağan olunmuş "Təsnif: mən türkəm" qrammofon valı və ÜİK(b)P və Sovet hökumətinə böhtan məzmunlu "Qırmızı terror" əksinqilabi kitab tapılmışdır.

**Cavab:** Qrammofon valı hardasa evdə idi, lakin kitabın evdə saxlanılmasını mən qəbahət hesab etmirdim.

**Sual:** Siz əvvəllər ədliyyə komissarı və Azərbaycan SSR prokuroru işləmisiniz?

**Cavab:** Bəli, 1925-1926-cı illərdə bu vəzifələrdə olmuşam.

**Sual:** Yəqin ki, cinayət məcəlləsini bilirdiniz?

**Cavab:** Bəli.

**Sual:** Onda necə deyə bilərsiniz ki, bu kitabın evdə saxlanılması qəbahət deyil?

**Cavab:** Kitabı mənə MK-nın katibi vermişdi və ona görə də belə hesab etdim ki, onu evdə saxlaya bilərəm (Talıblı Böyükağa Mirqasım oğlunun istintaq qovluğu. № - PR-27076).

Əslində, Talıblının həbsində bütün amilləri kənara qoyub bu iki fakta (qrammofon valına və qadağan olmuş kitaba) əsasən onu istədikləri kimi cəzalandıra bilərdilər. Lakin görünür bunlar azlıq edirmiş və bunlara görə güllələmə hökmü oxumaq olmazmış. "Mən türkəm" qrammofon valının evində saxlanmasına görə kimi isə ittiham etmək, onu bunda suçlu saymaq bir daha göstərir ki, repressiya məqsədli idi və bu daha çox xalqı öz keçmişindən, adət-ənənəsindən, kökündən, ən başlıcası isə milli mənsubiyyətindən qoparmağa xidmət edirdi. Müstəntiqi də narahat edən "mən türkəm" ifadəsi idi. Bu illərdə qarşıda duran əsas məsələlərdən biri də xalqın və şəxsiyyətin kimliyini unutdurmaq idi. Çünki şəxsiyyət özünü, milli kimliyini, gen yaddaşını dərk edəndə güclü olur və etirazçıya, haqqını tələb edənə çevrilir. Ona verilənlə yox, onun tələb etdiyi ilə barışmağa çalışır. Verilənlə tələb edilən arasında isə repressiya qatarı dayanmışdır. Bu qatara doldurulanların böyük əksəriyyəti isə özünü dərk edənlər - Azərbaycanı iqtisadi-mənəvi sərvətlərinə yiyələnməyə çağıranlar idi ki, onları da ya məhv edir, ya da Vətəndən uzaqlara göndərirdilər. Azərbaycanda bu qatarı idarə edən ermənilərin bir amalı var idi, əzab və işgəncə yolu ilə qarşısındakıları sındıraraq lazımi saxta ifadələri əldə etmək. Sonda işgəncələrə duruş gətirə bilməyən Böyükağa Talıblı NKVD rəhbərliyinə aşağıdakıları yazmaq məcburiyyətində idi: "6 ay ərzində mən istintaqa səmimi ifadələr verməmişəm. İndi isə partiya və Sovet hökuməti qarşısında tamamilə təslim olub müqaviməti dayandırıram. Mən əksinqilabi millətçi təşkilatın üzvüyəm və bu məsələ ilə əlaqədar ətraflı ifadələr vermək istəyirəm. Mənim işim üzrə istintaqın sürətini artırmaq üçün sizin əmrinizi gözləyirəm".

Bu çirkin niyyəti reallaşdırmaq üçün müstəntiqlər müttəhimlərə fiziki işgəncələr verməklə o qədər incidirdilər ki, onlar nəinki başqalarına, hətta özlərinə də böhtan atırdılar. 1937-ci il sentyabrın 14-də axırıncı istintaqda özünün "terrorçuluq fəaliyyəti"ndən danışan Talıblı deyirdi: "1935-ci ilin yayında M.C.Bağırovu öldürmək barədə əksinqilabi mərkəz və Ruhulla Axundov mənə tapşırıq vermişdi. Onu Zağulbaya gedən yolda öldürməli idim" (Talıblı Böyükağa Mirqasım oğlunun istintaq qovluğu. № - PR-27076).

Lakin buraqədərki mərhələlər də var idi. B.Talıblı ilk olaraq etiraf etməli idi ki, o, əksinqilabi fəaliyyətlə məşğul olmuş və onu həmin təşkilata kim cəlb etmişdir. Böyükağa Talıblı etiraf edirdi ki, onu həmin təşkilata Ruhulla Axundov cəlb etmiş və qarşısında aşağıdakı vəzifələri qoymuşdur. Rəhbərlik etdiyi aparatın türkləşdirilməsi; Təşkilata yeni üzvlər cəlb etmək; silahlı üsyan yolu ilə Azərbaycanda Sovet hakimiyyətini devirmək və müstəqil Azərbaycan dövləti yaratmaq.

Bundan başqa, B.Talıblıya işgəncə yolu ilə dedizdirirdilər ki, ədəbiyyat cəbhəsində Səməd Vurğun əksinqilabi millətçiliklə, Məmmədkazım Ələkbərli Yazıçılar İttifaqında (Yİ) H.Cavidin, Ə.Cavadın, A.Şaiqin, M.Müşfiqin və başqalarının əksinqilabi millətçi çıxışlarını müdafiə etməklə, Tağı Şahbazi Nəriman Nərimanovla sıx əlaqə saxlamaqla, Hacıbaba Nəzərli - Yİ-nin daxilində S.Vurğundan, M.Hüseyndən, R.Rzadan və İ.Hafizdən ibarət möhkəm əksinqilabi millətçi qrup yaratmaqla, Mikayıl Müşfiq qatı millətçiliklə, Mehdi Hüseyn və Süleyman Rüstəm averbaxçılıq işi aparmaqla, Əli Nazim əksinqilabi müsavatçılıqla, Əhməd Cavad və Yusif Vəzirov müsavatçılıqla, Hüseyn Cavid və Abdulla Şaiq pantürkistliklə məşğul idi.




1937-ci il sentyabrın 14-də (NKVD əməkdaşları onunla axırıncı istintaqı sentyabrın 14-də apardıqları halda istintaqın başa çatması ilə bağlı blankda 4 sentyabr 1937-ci il göstərmişlər ki, bu da doğru deyil) istintaqın başa çatdığı ona elan edildi və sentyabrın 20-də ittihamnamə tərtib edildi. İttihamnamədə göstərilirdi ki: "1936-cı ilin axırlarında silahlı üsyan yolu ilə Azərbaycanın SSRİ-dən ayrılması məqsədini qarşısına qoyan, partiya və hökumət rəhbərlərinə terror tətbiq edən, ziyankarlıq və casusluq işi aparan əksinqilabi trotskiçi millətçi aşkar edilmiş və dağıdılmışdır.

Azərbaycan əksinqilabi trotskiçi millətçi təşkilatı özünün əksinqilabi fəaliyyətində trotskiçi-zinovyevçi terrorist mərkəz və sağların əksinqilabi mərkəzi ilə əlaqədə olmuşdur.

İstintaq tərəfindən müəyyən edilmişdir ki, 1918-ci ildən partiyanın üzvü olan müttəhim Böyükağa Talıblı neçə illər ərzində mədəniyyət cəbhəsində əksinqilabi millətçi ideyaların təbliğatçısı olmuş, öz fəaliyyəti ilə Sovet hökumətinin bu sahədəki tədbirlərini pozmuşdur. Böyükağa Talıblı aşağıdakılarda ittiham edilirdi:

1) Silahlı üsyan yolu ilə Azərbaycanın SSRİ-dən ayrılmasını qarşısına məqsəd qoyan, ÜİK(b)P və Sovet hökuməti rəhbərlərinə terrorçu aktlar tətbiq edən, ziyankarlıq, kapitalist ölkələrinin xeyrinə casusluq işi aparan, trotskiçi təşkilatla ittifaqda fəaliyyət göstərən Azərbaycan əksinqilabi millətçi təşkilatın Mərkəzi Komitəsinin üzvü idi;

2) Millətçi təşkilatın ziyankarlıq üzrə əksinqilabi üsyançı qrupların yaranması, partiya və hökumət rəhbərlərinə qarşı terrorçu aktların hazırlanması üzrə apardığı əksinqilabi işlərdən xəbərdar olmuş və ən nəhayət, özü praktik olaraq əksinqilabi işlərin həyata keçirilməsində iştirk etmişdir:

a) Əksinqilabi təşkilata üzvlər cəlb edilməsində;

b) Azərbaycan SSR-in rayonlarında üsyançı qruplar təşkil edilməsində;

v) Azərbaycan SSR xalq təsərrüfatının planlaşdırılmasına ziyankarlıq işində;

q) neft sənayesində təxribatçılıq aktlarının hazırlanmasında;

ğ) partiya və hökumət rəhbərlərinə qarşı terrorçu aktların hazırlanmasında, yəni Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilmişdir. Talıblı günahkar olduğunu etiraf etmişdir (Talıblı Böyükağa Mirqasım oğlunun istintaq qovluğu. № - PR-27076).

1937-ci il oktyabrın 11-də SSRİ Ali Soveti Səyyar Sessiyasının iclası keçirildi və iclasda Matuleviç, Zaryanov, Jiqur belə qərara gəldilər ki, B.Talıblının işinə bağlı məhkəmə iclasında müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılsın.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının bağlı məhkəmə iclası 16.05 dəqiqədə öz işinə başladı. Cəmi 20 dəqiqə çəkən iclasda müttəhim Talıblı özünün günahkar olduğunu və əvvəlki ifadələrinin doğruluğunu təsdiqləməklə bildirdi ki, mənim suçum böyükdür, əgər humanist sovet məhkəməsi məni əfv edərsə, öz əməyimlə günahlarımı yuyaram. Humanist sovet məhkəməsi sadiq kommunistin xahişini təmin etmədi. Böyükağa Mirqasım oğlu Talıblı ən yüksək cəzaya - güllələnməyə məhkum edildi. Hökm bir gün sonra - 13 sentyabr 1937-ci ildə Bakı şəhərində yerinə yetirildi (istintaq qovluğunda bu barədə arayış vardır).

Bir qədər sonra Böyükağa Talıblının həyat yoldaşı Nataliya Mixayılovna da xalq düşməninin həyat yoldaşı kimi həbs edildi. Daha doğrusu, 26 noyabr 1937-ci ildə 8-ci şöbənin rəisi Koqan tərəfindən hazırlanmış arayışı xalq daxili işlər komissarının müavini mayor Borşev təsdiq etdi. Həmin arayışda göstərilirdi ki, 9 yanvar 1937-ci ildə Böykağa Talıblı necə bir əksinqilabi millətçi, təxribatçı terrorçu vətən xaini kimi, Azərbaycan XDİK tərəfindən həbs edilmişdir. Onun istintaqı başa çatmış və SSRİ Hərbi Kollegiyasının Səyyar Sessiyası tərəfindən 12 oktyabr 1937-ci ildə birinci kateqoriya ilə məhkum edilmişdir.

B.Talıblının həbsinə qədər onunla birlikdə yaşamışdır:

1. Onun həyat yoldaşı 1895-ci ildə Moskva vilayətində doğulmuş, milliyyətcə rus, SSRİ vətəndaşı, ali təhsilli, pedaqoq, bitərəf, indiyə kimi həbs olunmamış Nataliya Mixayılovna Talıblı.

2. Onların qızı 17 yaşlı Sona xanım.

Deyilənləri əsas götürərək və 00486 saylı əmri əldə rəhbər tutaraq Natalya Mixayılovna Talıblı vətən xaininin arvadı kimi həbs edilsin və Bakı şəhərində mühafizə altında ümumi həbsxanada saxlanılsın (Nataliya Mixayılovna Talıblının istintaq qovluğu. № - PR-25486). Beləliklə, heç bir əsas olmadan Nataliya Mixayılovna Talıblı da həbs edilir.

Yeri gəlmişkən qeyd etməliyik ki, vətən xainlərinin həyat yoldaşlarının və ailə üzvlərinin istintaqı olduqca simvolik xarakter daşıyırdı, yəni istintaq bir-iki sadə sualla başa çatır və müttəhimə bir qayda olaraq 8 il iş verirdilər. DTİ-nin baş inspektoru kiçik leytenant Moşeçkovun dindirmə protokolu dediklərimizi təsdiq edir.

**Sual:** Siz neçə ildir ki, Talıblı Böyükağa ilə ailə qurmusunuz?

**Cavab:** Mən onunla 1917-ci ildən ailə qurmuşam.

**Sual:** Sizə onun əksinqilabi fəaliyyəti haqqında nə məlumdur?

**Cavab:** Mənə onun əksinqilabi fəaliyəti barədə qətiyyən heç nə məlum deyildir.

**Sual:** İş üzrə siz nə əlavə edə bilərsiniz?

**Cavab:** Talıblının özü tərəfindən olduğu kimi, qohumları tərəfindən də özümə qarşı qərəzli münasibət görürdüm və o, özünün hərəkətləri ilə məni iki dəfə özümü öldürmək məcburiyyəti qarşısında qoymuşdu. İfadələr mənim sözlərimə uyğun yazılmışdır. İfadəm mənə oxunmuş, düzgünlüyünü öz imzamla təsdiq edirəm (Nataliya Mixayılovna Talıblının istintaq qovluğu. № - PR-25486).

Mənə istintaqın başa çatması haqqında məlumat verilmişdir. İstintaqa nə isə əlavə edə bilərsiniz sualına cavab olaraq bildirirəm ki, istintaqa heç bir əlavəm yoxdur. Talıbovlar ailəsi də 1937-ci ilin siyasi repressiyalarının məngənəsində beləcə can verdi.